İ.-S.BAX

YAXŞI TEMPERASİYALI KLAVİR

IIcild



И.-С.БАХ

ХОРОШО ТЕМПЕРИРОВАННЫЙ КЛАВИР

IIтом



İOHANN SEBASTYAN BAX

YAXŞI TEMPERASİYALI KLAVİR

II cild

Bruno Mucellininin ifaçılıq göstərişləri və
Yakov Milşteynin analitik şərhləri ilə

Tərtibçi-redaktorlar:
Fərhad Bədəlbəyli və Tərlan Seyidov

ИОГАНН СЕБАСТЬЯН БАХ

ХОРОШО ТЕМПЕРИРОВАННЫЙ КЛАВИР

том II

С исполнительскими указаниями Бруно Муджеллини и аналитическими комментариями Якова Мильштейна

Редакторы-составители:
Фархад Бадалбейли и Тарлан Сеидов

BAKI – 2022

Nəşr Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının
Orta İxtisas Musiqi məktəb-studiyasında hazırlanmışdır.
BMA-nın Elmi Şurası tərəfindən
"Fortepiano" fənni üzrə pedaqoji repertuar kimi tövsiyə və təsdiq olunmuşdur
(20 may 2016-cı il tarixli 9 №-li protokol).

Издание подготовлено в Средней специальной музыкальной школе-студии
Бакинской музыкальной академии имени Узеира Гаджибейли.
Утверждено и рекомендовано Ученым советом БМА
как учебный репертуар по предмету «Фортепиано»
(протокол № 9 от 20 мая 2016-го года).

Azərbaycan dilinə tərcümə:
Kəmalə Ələsgərli

Перевод на азербайджанский язык:
Кямаля Алескерли

Redaktorlar:
Aytən İbrahimova, Elmira Mustafayeva

Texniki redaktor:
Natəvan Fərzəliyeva

Редакторы:
Айтен Ибрагимова, Эльмира Мустафаева

Технический редактор:
Натаван Фарзалиева

İohann Sebastyan Bax. Yaxşı temperasiyalı klavir. II cild.
Bruno Mucellininin ifaçılıq göstərişləri və *Yakov Milşteynin* analitik şərhləri ilə.
Tərtibçi-redaktorlar: *Fərhad Bədəlbəyli* və *Tərlan Seyidov.*

Иоганн Себастьян Бах. Хорошо темперированный клавир. II том.
С исполнительскими указаниями *Бруно Муджеллини* и аналитическими комментариями *Якова Мильштейна.*
Редакторы-составители: *Фархад Бадалбейли* и *Тарлан Сеидов.*

ÖN SÖZ

Hazırkı nəşr Üzeyir Hacıbəyli adına BMA-nın elmi-eksperimental laboratoriyası olan Orta ixtisas musiqi məktəb-studiyasında hazırlanmışdır. Əvvəlki nəşrlərdən fərqli olaraq, bu kitab italyan pianoçusu və pedaqoqu Bruno Mucellininin (1871 – 1912) ifaçılıq göstərişləri ilə yanaşı rus pianoçusu, pedaqoqu və musiqişünası Yakov Milşteyn (1911 – 1981) tərəfindən "İ.S.Baxın Yaxşı temperasiyalı klaviri və onun ifa xüsusiyyətləri" məşhur kitabında təsvir olunmuş (Azərbaycan və rus dillərində) hər bir prelüd və fuqanın musiqi təhlilinin əsas xüsusiyyətlərini özündə əks etdirən bir dərs vəsaitidir. Bruno Mucellinin şərhləri notlar altında, Milşteynin təhlili isə hər fuqadan sonra verilir.

İnanırıq ki, bu nəşr musiqi tədris müəssisələrinin müəllimləri, həm də şagird və tələbələrinin polifoniya üzərindəki işində faydalı olacaq.

ПРЕДИСЛОВИЕ

Настоящее издание подготовлено в Средней специальной музыкальной школе-студии – научно-экспериментальной лаборатории БМА имени Узеира Гаджибейли. Оно представляет собой учебное пособие с исполнительскими указаниями итальянского пианиста и педагога Бруно Муджеллини (1871 – 1912), к которому добавлены (на азербайджанском и русском языках) основные черты музыкального анализа каждой прелюдии и фуги, описанные русским пианистом, педагогом и музыковедом Яковом Мильштейном (1911 – 1981) в его известной книге «Хорошо темперированный клавир И.-С.Баха и особенности его исполнения». Исполнительские комментарии Бруно Муджеллини даны в ссылках под нотными текстами, а анализы Мильштейна – после каждой фуги.

Надеемся, что данное издание принесёт большую пользу в работе над полифонией и педагогам, и учащимся музыкальных учреждений.

MÜNDƏRİCAT

I Prelüd — 5
I Fuqa (3 səsli) — 7
II Prelüd — 12
II Fuqa (4 səsli) — 14
III Prelüd — 17
III Fuqa (3 səsli) — 19
IV Prelüd — 23
IV Fuqa (3 səsli) — 28
V Prelüd — 33
V Fuqa (4 səsli) — 36
VI Prelüd — 40
VI Fuqa (3 səsli) — 42
VII Prelüd — 45
VII Fuqa (4 səsli) — 47
VIII Prelüd — 50
VIII Fuqa (4 səsli) — 52
IX Prelüd — 55
IX Fuqa (4 səsli) — 57
X Prelüd — 60
X Fuqa (3 səsli) — 64
XI Prelüd — 69
XI Fuqa (3 səsli) — 72
XII Prelüd — 76
XII Fuqa (3 səsli) — 79
XIII Prelüd — 83
XIII Fuqa (3 səsli) — 86
XIV Prelüd — 90
XIV Fuqa (3 səsli) — 92
XV Prelüd — 97
XV Fuqa (3 səsli) — 99
XVI Prelüd — 102
XVI Fuqa (4 səsli) — 104
XVII Prelüd — 109
XVII Fuqa (4 səsli) — 113
XVIII Prelüd — 117
XVIII Fuqa (3 səsli) — 120
XIX Prelüd — 126
XIX Fuqa (3 səsli) — 128
XX Prelüd — 131
XX Fuqa (3 səsli) — 133
XXI Prelüd — 137
XXI Fuqa (3 səsli) — 141
XXII Prelüd — 145
XXII Fuqa (4 səsli) — 148
XXIII Prelüd — 156
XXIII Fuqa (4 səsli) — 159
XXIV Prelüd — 164
XXIV Fuqa (3 səsli) — 167

I Prelüd




f
dim.
p
cresc.
f
poco dim.
(poco rit.
a tempo)
rit.
f
p calmo
p

I Fuqa



a) Yuxarıya hərəkət edən intermediya-sekvensiya mövzunun hissələrindən əmələ gəlib. 55-61-ci xanələrdə təkrarlanır.

а) Интермедия-секвенция, движущаяся вверх, образованная из отрывков темы. Повторяется в тактах 55 - 61.



b) Aşağıya doğru hərəkət edən intermediya-sekvensiya aşağıdakı tematik hissələrdən təşkil olunub:



б) Интермедия-секвенция, движущаяся вниз, образованная из следующих тематических отрывков:



c) Yuxarıya doğru hərəkət edən intermediya-sekvensiyadır. Bas səsi mövzunun üçüncü xanəsindən əmələ gəlib.

d) Bu intermediya, ümumən bundan əvvəlkilərlə eyni xarakterə malikdir.

c) Интермедия-секвенция, движущаяся вверх. Бас выведен из 3-го такта темы.

d) Следующая интермедия того же характера, что и предыдущие.



e) Tonika orqan punktu.

f) Mövzunu göstərin. "Do" səsi "mi" səsinə nisbətən daha gözəçarpan olmalıdır.

g) Dördüncü səsin əlavə edildiyi sərbəst kadensiya.

e) Органный пункт на тонике.

f) Выделите тему. *До* должно быть сильнее, чем *ми*.

g) Свободное заключение с добавлением четвертого голоса.

Prelüd və fuqa C–dur

Bu ***prelüd*** "Yaxşı temperasiyalı klavir"in II hissəsini "bayram portalı" kimi açır. Onun dolğun, orqan səs ahəngi və aramlı nəfəsi xüsusi ab–hava yaradır.

Prelüdün ifası geniş vüsətli olmalıdır, səslənməsinə görə əzəmətli, təmtəraqlı–gümrah, "bütünlüklə orqan üslubunda" (Bartok) təqdim edilməlidir.

Temp təmkinlidir, *sostenuto, espressivo, molto moderato* daxil olmaqla, daha çox *Moderato*–ya yaxındır. Xətlərin dolğunluğu və genişliyi gur səsli, rezonanslı *forte*–yə əsaslanan dinamika tələb edir.

Kadensiya olan yerlərdə *forte*–dən *piano*–ya və əksinə, *p*–dan *f*–yə təzadlı keçidlər tövsiyə etmək olar, 7–ci xanədəki ikinci çərək notda – dominanta tonallığındakı kadensiya zamanı, yəni prelüdün əvvəlində gur səsli *forte*–dən sonra *subito p* olmalıdır; 25–ci xanədəki üçüncü çərəkdə *p*–dan dolğun səsli *f*–yə qəfil keçid baş verir və prelüdün sonunda əzəmətli səslənməyə qədər artır.

Artikulyasiya ya *legato*, ya da *legatissimo*–ya keçir. Mövzunun frazirovkası mümkün qədər iridir (iki–üç xanə boyu liqa!). Melodik xəttin iki səsə ayrıldığı yerlərdə təbiilik və aramsızlığı xüsusi olaraq qoruyub saxlamaq lazımdır – heç bir səs digəri üzərində hakim olmamalıdır, hamısı eyni güc və çevikliklə səslənməlidir.

Üçsəsli ***fuqa*** prelüdlə təzadlıq təşkil edir. O, elə bil ki, şadyana şənliklə doludur, çox sürətli və itidir və özünün bu kimi xüsusiyyətləri ilə bir növ prelüdün daha sakit və əzəmətli xüsusiyyətlərini nəzərə çarpdırır.

Fuqanın mövzusu xanənin zəif təqtisindən (dominanta ilə) başlayır və pauza vasitəsi ilə nəzərə çarpan iki hissəyə ayrılır. Bunlardan birincisi özündə daha parlaq və "fərdi" intonasiyaları cəm edir, ikincisi isə hərəkətin eyni dərəcədə sakitləşməsi və bərabərləşərək tarazlaşdırılması ilə xarakterizə olunur.

Əkshərəkət mövzunun ikinci yarısındakı hərəkəti davam etdirərək onun motivli materialı üzərində qurulmuşdur.

Fuqanın ifası canlı, şən, qətiyyətli və itidir – amma yumordan və acı istehzadan da yan deyil. Temp kifayət qədər hərəkətlidir – *Allegro vivace*–yə və yaxud sadəcə *Vivace*–yə daha yaxındır.

Mövzunun artikulyasiyası *legato*–dan çox *non legato*–ya daha yaxındır, həm də burada iki variant mümkündür: ya *sempre non legato*, ya da uç not – *legato*, digərləri isə *non legato* götülürməlidir.

Прелюдия и фуга C–dur

Прелюдия как «праздничный портал» открывает 2–ю часть «Хорошо темперированного клавира». Ее полная, органная звучность, и протяжное дыхание создают особую атмосферу.

Исполнение прелюдии должно быть широким, торжественно–приподнятым, величественным по звучности, «совершенно в органном стиле» (Барток).

Темп сдержанный, ближе всего к *Moderato* с прибавлениями *sostenuto, espressivo, molto moderato*. Полнота и широта линий требуют динамики, основанной на звучном, резонирующем *f*.

Можно было бы рекомендовать контрастные переходы от *f* к *p* и наоборот — в местах каденций в т. 7 на второй четверти — при каденции в доминантовой тональности — *subito p* после звучного *f* в начале прелюдии; в т. 25, на третьей четверти — внезапный переход от *p* к полнозвучному *f*, разрастающемуся до величественного звучания в конце прелюдии.

Артикуляция сводится либо к *legato*, либо к *legatissimo*. Фразировка темы — по возможности крупнее (лига на два–три такта!). Особенно важно сохранить естественность и непрерывность там, где мелодическая линия разделяется между двумя голосами — ни один голос не должен доминировать над другим, а должен звучать с одинаковой силой и гибкостью.

Фуга (трехголосная) скорее контрастирует прелюдии. Она вся словно проникнута ликующим весельем, стремительна и остра, и этими своими чертами как бы оттеняет характерные, более спокойные и величественные черты прелюдии.

Тема фуги начинается со слабой доли такта (на доминанте) и заметно расчленяется паузой на две части, из которых первая содержит более яркие, «индивидуализированные» интонации, а вторая – характеризуется равнительным успокоением и выравниванием движения.

Противосложение продолжает движение второй части темы и построено на ее мотивном материале.

Исполнение фуги живое, веселое, решительное, острое – не без юмора и колкости. Темп весьма подвижный — ближе всего к *Allegro vivace* или просто к *Vivace*.

Артикуляция темы ближе к *non legato*, чем к *legato*, причем возможны два варианта: или *sempre non legato*, или же три ноты — *legato*, остальные — *non legato*.

II Prelüd


Allegro con brio (♩=120)
marc.
mf
cresc.
marc.
f
f
dim.
p
cresc.
mf
marc.
f
marc.



**) Avtoqraf və bir çox ilkin mənbələrdə xanənin I yarısında iki dəfə - lya bekar, ikinci yarısında isə - lya bemol tam aydın qeyd olunub. Bütün nəşrlərdə - xanənin sonuna qədər - bekar işarəsidir.*

**) В автографе и во многих первоисточниках с полной ясностью в первой половине такта два раза указан ля бекар, во второй половине такта - ля бемоль. Во всех изданиях - бекар до конца такта.*

II Fuqa





a) Связующая интермедия между вторым и третьим проведением темы.
b) Первая интермедия. Обратите внимание на вступление нового короткого мотива  **, начинающегося заимствованным из темы интервалом квинты и повторяющегося позже в сопрано в обращении** **в то время как тенор и альт используют интонации начала темы.**

c) Надо ясно показать вступление темы.
d) Вторая интермедия. Сопрано повторяет конец темы

a) Mövzunun ikinci və üçüncü keçidləri arasındakı bağlayıcı intermediya.
b) Birinci intermediya. Yeni, qısa motivin girişinə diqqət yetirin.

O, mövzunun kvinta intervalından əmələ gələrək, daha sonra soprano səsində dönmə şəklində təkrar olunur.

Bu zaman tenor və alt səslərində mövzunun başlanğıc intonasiyaları keçir.

c) Mövzunun girişini aydın şəkildə göstərmək lazımdır.
d) İkinci intermediya. Soprano səsi mövzunun sonunu təkrarlayır.



e) Стретто. Альт вступает с темой в увеличении и тенор с темой в обращении. Далее следует сейчас же второе стретто.

f) В оригинале здесь стоит *ля* и *ре*.

g) Надо дать почувствовать разрешение *ре* в *до* (см. примечание a) к третьей прелюдии).

h) Новое стретто.

e) Stretta. Alt səsi mövzunun artırılmış variantı ilə, tenor səsi mövzunun dönmə şəkli ilə daxil olur. Daha sonra ikinci stretto dərhal öz girişini verir.

f) Originalda burada "*lya*" və "*re*" göstərilib.

g) "*Re*" səsinin "*do*" səsinə həllini hiss etdirmək lazımdır (bax: üçüncü prelüd – qeyd: a).

h) Yeni stretta.

Prelüd və fuqa c–moll

Prelüd allemanda və ikisəsli invensiya arasında orta mövqedə durur. Prelüd və onunla ardıcıllaşan fuqa arasında motiv oxşarlığını da izləmək mümkündür. Prelüd daha çox rəqsvaridir, ritm cəhətdən qüvvətli və itidir, şən təbiətlidir, lakin burada bir çox məqamlar "sakit qəm–qüssə"yə bürünüb. Prelüdün forması ikihissəlidir və allemanda formasını xatırladır.

Prelüdün ifası dəqiq, aydın, çevik "diribaşlıq" (*sciolto*) tələb edir, bununla bərabər həm də lətif, cazibədar və ifadəli olmalıdır. Temp çox da cəld deyil, *Allegro moderato*–ya, hətta *Moderato*–ya yaxındır. Ən sadə artikulyasiya belədir: onaltılıq notlarla *legato* və ya *leggero*, səkkizlik notlarla – *staccato*. Dəqiq, aydın və anlaşılan "tələffüz" olmalıdır.

Dördsəsli ***fuqa*** axıcı, təmkinli, nəcib–ifadəli xarakterli pyeslər sırasına aiddir. Fuqanın mövzusu lakonikdir (iki xanədən də qısadır), o, yekcinsdir və ciddidir, kolorit cəhətdən tutqun – pərişandır.

Baxın polifonik mövzuları arasında bu mövzu ən ehtiraslı və coşğun mövzulardan biridir, bir çox cəhətdən qədim rus ahəstə xarakterli mahnıların mövzularına yaxındır. Ona tonal cavab yoldaşlıq edir. Cavaba kontrapunkt yaradan əkshərəkət isə olduqca sadə, pilləvari, aşağı istiqamətlidir.

Mövzu daha sonra şəklini dəyişir: mövzuya vəzn cəhətdən punktir ritminin elementləri daxil edilir, fiqurasiya cəhətdən mövzunun ilkin intonasiyasının dəyişilməsi özünü göstərir, səs yüksəkliyi cəhətdən mövzunun səs ucalığında dəyişikliklər baş verir. Mövzu eyni zamanda artırılmış, dönmə, sadə və stretta şəklində keçir. Dördüncü səs öz girişini fuqanın ancaq ikinci yarısında verir; bu isə fuqanın ümumi ideyasından irəli gələrək əsərin sonuna doğru qabaqcadan nəzərdə tutulmuş möhkəm *cresc*. ilə bağlıdır.

Fuqanın ifası kifayət qədər həlim, incə, ifadəli və nəcib olmalıdır, nə çox zəif, nə də çox təsirli olmamalıdır. Nə qədər sadə olsa, bir o qədər yaxşıdır. Temp mülayimdir – ya *Moderato* ya da *Molto moderato*–dur. Bu həzin, kədərli fuqanın inkişafı orqansayağı vüsətə və vokalsayağı ahəngdarlığa malikdir. İkinci hissədə səslərin sayının çoxalması və strettalı keçidlərin artması fuqanın sonuna doğru səslənmənin güclənməsinə səbəb olur.

Artikulyasiya daimi *legato*–nun tətbiqinə əsaslanır.

Прелюдия и фуга c–moll

Прелюдия представляет собой нечто среднее между аллемандой и двухголосной инвенцией. Можно проследить также мотивное сходство между прелюдией и следующей за ней фугой. Прелюдия более танцевальна, упруга по ритму, острее, радостнее по духу, хотя и в ней многое покрыто «пеленой спокойной грусти». Форма прелюдии двухчастная и напоминает собой форму аллеманды.

Исполнение прелюдии требует точности, ясности, отчетливости, известной «проворности» (*sciolto*), но вместе с тем и приятной легкости, грациозности, выразительности. Темп не слишком быстрый, ближе всего к *Allegro moderato* или даже к *Moderato.* Наиболее простая артикуляция: шестнадцатые *legato* или *leggiero*, восьмые — *staccato*. Необходимы точность, отчетливость, внятность «произношения».

Фуга (четырехголосная) принадлежит к числу пьес плавного, сдержанного, благородно–выразительного характера. Тема фуги лаконичная (короче двух тактов), она однородна и серьезна, сумрачно–печальна по колориту.

Это – одна из наиболее вдохновенных и прекрасных полифонических тем Баха, родственная во многом темам старинных русских песен протяжного характера. Ей сопутствует тональный ответ, которому контрапунктирует весьма простое, спокойно спускающееся по ступеням противосложение.

В дальнейшем тема варьируется: ритмически – внесением в тему элементов пунктирного ритма, фигурационно – посредством изменения начальной интонации темы, звуковысотно – путем изменения высоты звуков темы. Тема проводится также в увеличении, в обращении, в простом изложении и в стреттном. Четвертый голос вступает лишь во второй половине фуги; это связано с общим замыслом, предусматривающим мощное внутреннее *cresc*. к концу фуги.

Исполнение фуги должно быть достаточно мягким, нежным, выразительным, благородным, но не расслабленным и не излишне чувствительным. Чем проще, тем лучше. Темп умеренный – или *Moderato* или *Molto moderato*. Это скорбно – выразительная фуга, развертывающаяся по–органному широко и по–вокальному протяжно–напевно. С увеличением числа голосов и стреттных проведений во второй половине – предусматривает нарастание звучности к концу фуги.

Артикуляция основана на постоянном использовании *legato.*

III Prelüd


Andante (♩= 80)
p uguale
seque
cresc.
dim.
p
cresc. a poco a poco
mf più cresc.



a) "Re diyez" səsinin "do diyez" səsinə həllini göstərmək lazımdır. Aşağıdakı ifadan özünüzü çəkindirin:

а) Дайте заметить, что *ре диез* разрешается в *до диез*, причём избегайте следующего исполнения:

---

*) ♪=♪ *Allegro göstərişi ilkin mənbələrdə mövcuddur. Bu göstəriş ölçüsünü, yəni istinad vahidini dəyişdirərkən xarakter dəyişikliyi kimi başa düşülməlidir. Lakin tempin dəyişməsi kimi deyil!*

*) ♪=♪ *Указание Allegro имеется в первоисточниках. Его следует понимать как смену характера при перемене размера, т. е. единицы отсчета. Но не как смену темпа!*

III Fuqa

Allegro moderato, ma deciso (♩ =66)





Кода темы служит одновременно противосложением и сопровождает проведение темы во всех других голосах. В седьмом такте эта вторая половина темы (кода) изменяется следующим образом:  **Из этих двух различных форм коды выведена бóльшая часть интермедий фуги.**

Mövzunun kodası eyni zamanda əkshərəkət vəzifəsini icra edir və mövzunun keçidini bütün digər səslərdə müşayiət edir. Yeddinci xanədə mövzunun bu ikinci yarısı (koda) aşağıdakı kimi dəyişilir:

Fuqanın intermediyasının başlıca hissəsi kodanın bu iki müxtəlif formasından əmələ gəlib.

a) Тема в обращении.
b) Тематический отрывок в уменьшении. Он проходит в двух верхних голосах в прямом движении, а в басе в обращении. Нечто похожее происходит в тактах 18 и 19.
c) Проведение коды темы, здесь данной в обращении.
d) Интермедия, формирующаяся из характерной интонации начала темы. Фигура  **которая проходит сперва в сопрано, а потом в теноре, выведена из коды темы.**

a) Mövzu dönmə şəklindədir.
b) Tematik hissə əksilmə şəklindədir. İki yuxarı səsdə düz şəkildə, basda dönmə şəklində keçir. 18 və 19-cu xanələrdə buna bənzər hal əmələ gəlir.
c) Burada mövzunun kodasının keçidi dönmə şəklində verilib.
d) Bu intermediya mövzunun başlangıcındakı səciyyəvi intonasiyadan təşkil olunub. Əvvəlcə sopranoda, sonra isə tenorda keçən fiqur  **mövzunun kodasından yaranıb.**



e) Равнозначно следующему: 

f) В этой второй интермедии используются кроме начала темы (данной также в обращении и в уменьшении) еще и другие тематические элементы: кода темы в обращении:



вторая кода темы: 

в прямом движении и в обращении и, кроме того, пассаж:

который происходит a) из второй коды темы и b) из самой темы в обращении.

c) Aşağıdakına bərabərdir: 

f) Bu ikinci intermediyada mövzunun başlanğıcından (dönmə və əksilmə variantlarından) başqa, digər tematik elementlər də istifadə olunub: mövzunun kodasının dönmə variantı,



mövzunun ikinci kodası düz və dönmə şəklində



və bir də, a) mövzunun ikinci kodasından və b) mövzunun dönmə şəklindən əmələ gələn passaj:



g) Mövzu artma şəklindədir.

h) Aşağıdakına bərabərdir:



i) Dominanta orqan punktu.

j) Koda. Tonika orqan punktu. Üst səsi orta səsdən daha çox göstərmək lazımdır.

g)Тема в увеличении.

h) Равнозначно следующему:

i) Органный пункт на доминанте.

j) Coda. Органный пункт на тонике. Надо выделить верхний голос больше среднего.

Prelüd və fuqa Cis–dur

Prelüd qeyri–adi tərzdə qurulmuşdur. O, iki hissədən təşkil olunaraq, prelüdün özündən və kiçik üçsəsli fugettadan ibarətdir.

Prelüdün bütün I hissəsinin koloriti işıqlı, həlim, sakitdir. Üst səslərdən əmələ gələn melodik xətt onaltılıq notların nəfis toxumasının arasından yüngülvari "işıq saçır".

Basda ağır–ağır təkrar olunan notlar sanki vaxt bildirən saat zərbəsini xatırladır.

Prelüdün II hissəsi – fugetta xarakterinə görə I hissə ilə kəskin təzadlıq təşkil edir: sakit, axıcı hərəkət əvəzinə biz qətiyyətli *Allegro* ilə rastlaşırıq.

Prelüdün ifası I hissədə sakit, axıcı və incədir, II hissədə qətiyyətli və müəyyəndir, lakin əsla kobud deyil. I hissənin tempi mülayimdir, daha çox *Andante* və ya *Andantino*–ya yaxındır. Onun səslənməsi səmimi, həlim, ahəngdardır. Sağ əl – *ben legato*, sol əl – *portato*–dur.

Prelüdün II hissəsinin tempi *Allegro*–dur.

Üçsəsli ***fuqa*** prelüd kimi qeyri–adidir. Artıq I hissədə mövzunun stretta keçidləri və dönmə variantı özünü göstərir. Fuqa mövzusu müstəsna dərəcədə qısadır.

Tonal cavab mövzu bitməmiş öz girişini verir. Bu isə cavabın xüsusi "stretta"lı növünü meydana çıxarır.

Mövzunun akkordlu intonasiyaları (səkkizlik notlarla fanfaralar!) cürbəcür strettalı və işlənmə keçidlərini mümkün edir. Bax hər dəfə yeni detallar taparaq həm ritm, həm mövzunun əksildilməsi və artırılması sahəsində, həm də kanonik priyomların tətbiqində müstəsna ixtiraçılıq nümayiş etdirir.

Əvvəlcə təmkinli, sonra isə təntənəli şəkildə ifa olunan fuqa geniş vüsət, aydınlıq tələb edir. Fuqa "asudəlilik, sevinc" ifadə etməlidir. Temp cəld, sürətli olmamalıdır. Burada *Moderato* yaxud *Sostenuto* və ya *Molto moderato e maestoso* tətbiq oluna bilər. Həm də ki, temp fuqanın sonunda daha tez–tez meydana çıxan otuzikilik notları "limitləşdirir". Artikulyasiya *pesante, non leggero* xarakterli *non legato*–ya əsaslanır.

Прелюдия и фуга Cis–dur

Прелюдия построена необычно. Она состоит из двух частей: собственно прелюдии и небольшой фугетты на три голоса.

Колорит всей этой первой части прелюдии светлый, мягкий, спокойный. Сквозь ажурную ткань шестнадцатых слегка «просвечивает» мелодическая линия из верхних нот.

Медлительно повторяющиеся ноты в басу как бы напоминают удары часов, отмечающих время.

Вторая часть прелюдии – фугетта – резко контрастирует по характеру с первой ее частью: вместо спокойного плавного движения мы встречаем решительное *Allegro*.

Исполнение прелюдии – в 1–й ее части спокойное, плавное и нежное – становится во 2–й части решительным и определенным, но отнюдь не грубым. Темп в 1–й части умеренный, ближе всего к *Andante* или к *Andantino.* Звучание теплое, мягкое, гармоничное. Правая рука – *ben legato,* левая рука – *portato.*

Темп 2–й части прелюдии *Allegro.*

Фуга (трехголосная) столь же необычна, как и прелюдия. Уже в первой части она содержит стреттные проведения и обращения темы. Тема ее, чрезвычайно короткая.

Ответ (тональный) вступает ранее окончания темы, что образует особый, «стреттный» вид ответа.

Аккордовые интонации темы (фанфары восьмыми!) допускают всевозможные стреттные и разработочные проведения. Бах каждый раз находит все новые и новые детали, обнаруживая исключительную изобретательность как в области ритма, уменьшения и увеличения отрывков темы, так и в применении канонических приемов.

Исполнение фуги – сначала сдержанной, а затем триумфальной – требует известной широты, определенности. Оно должно передать «спокойную радость» фуги. Темп не должен быть быстрым. Это *Moderato* или *Sostenuto* или *Molto moderato e maestoso*. Темп также «лимитируют» и тридцатьвторые, которые все чаще появляются к концу фуги. Артикуляция основана на *non legato* в характере *pesante, non leggiero.*

IV Prelüd



a) Bu ecazkar prelüddəki müxtəlif səslərin aramsız dialoquna ifadəlilik bəxş etmək lazımdır.

a) Надо постараться придать большую выразительность непрерывному диалогу между разными голосами этой чудесной прелюдии.


cresc.
tr
f
p
espr.
meno p
espr.
tr
tr
mf


mf
p
marc.
marc.


cresc.
marc.
tr
espr.
f


delicato
p


espr.
dim.
p
tr
dim.
dolente
espr.
espr.


dolcissimo
pp
tr
cresc. a poco a poco
tr
tr
tr
f
ampio
p

IV Fuqa



а) Важная интермедия в девять тактов, где последняя часть темы проводится поочередно в разных голосах:

В других интермедиях (такты 22, 32, 49, 57 и 62) тематическая разработка материала аналогична.

a) Doqquz xanəlik intermediyanın böyük əhəmiyyəti vardır, çünki mövzunun sonuncu hissəsi burada növbə ilə müxtəlif səslərdə keçir:



Materialın tematik işlənməsi digər intermediyalarda (x.22, 32, 49, 57 və 62) buna bənzərdir.



b) Короткая интермедия, состоящая из двух тактов, после которой сопрано, тенор и бас проводят один за другим тему в обращении, сопровождаемую до 30-го такта новой ритмической фигурой:



b) İki xanədən ibarət qısa intermediyadan sonra soprano, tenor və bas səsləri 30-cu xanəyə qədər yeni ritmik fiqurla müşayiət olunaraq, bir-birinin ardınca mövzunu dönmə şəklində ifa edirlər:




49
f
dim.
или:
p
marc.
m/p
57
cresc.
mf
tr
62
f
poco rit.

Prelüd və fuqa cis–moll

"Yaxşı temperasiyalı klavir"in ən gözəl və təsirli ***prelüdlərindən*** biri bizim qarşımızdadır. Mahiyyət etibarilə bu, üç səs arasındakı "arasıkəsilməz dialoq", söhbətdir və qəm–qüssə əhval–ruhiyyəsi ilə irəliləyir.

Təfsirdəki fövqəladə ahəngdarlıq və kontrapunktik incəlik dərin daxili ekspressiya ilə növbələşir. Çoxsaylı, cürbəcür bəzəklər melodik xəttə xüsusi dalğavari xarakter bəxş edir. Hərəkətin dalğalı "dolambac" olması gözlənilməz effektlər yaradır, ifadəliliyi artırır.

Prelüdün ifası böyük ifadə gücü tələb edir. Lakin bunu mətndən irəli gələn ciddi çərçivə daxilində incədən–incəyə, ehmalla yerinə yetirmək lazımdır. Temp rəvandır, daha çox *Andantino*–ya yaxındır. Dinamik plan cüzi təzadların bacarıqla növbələşməsinə əsaslanır; orta səsdəki mövzunu xüsusilə vurğulamaq lazımdır; müşayiəti hər yerdə sakit, asta ifa etmək lazımdır. Müxtəlif səslər arasındakı fasiləsiz dialoq zamanı böyük ifadəliliyə çalışmaq lazımdır. Artikulyasiya daha çox *legato*–ya yaxındır; akkord motivləri təfsilatlı olaraq *molto portato,* bütün yerdə qalanlar isə *legato* ifa olunmalıdır. Yadda saxlamaq lazımdır ki, çərək və nöqtəli çərəyin qarşısındakı bütün apodjiaturalar (forşlaqlar) bir səkkizlik sürəti tələb edir; səkkizlik notların qarşısındakı apodjiaturalar isə (məsələn, x. 8) bir onaltılıq sürəti tələb edir.

Üçsəsli ***fuqa*** şübhəsiz ki, prelüdlə kəskin təzad təşkil edir: prelüdün rəvan, həlim hərəkətinin əvəzinə burada onaltılıq triolların arasıkəsilməz, enerjili hərəkəti özünə yer alır. Əgər biz onu jiqa hesab ediriksə, bu zaman o, "faciəvi jiqa"dır. Fuqaya bu cür yanaşdıqda onda prelüdün qəm–qüssəli əhval–ruhiyyəsi ilə təmas nöqtəsi tapmaq mümkündür. Prelüdün ariozo kimi təqdim olunmasına baxmayaraq, burada rəqsvari üslubun təsiri özünü göstərir və o, qismən sitsilianano xatırladır. Ağır və cəld rəqs hərəkətlərinin qarşılarşdırılması, (özü də bir–birinə yaxın üç hissəli ölçü vəznləri ilə tutuşdurulması) prelüd və fuqanı vahid tam şəklində birləşdirir.

Fuqanın mövzusu möhkəm və qüvvətli, lakonik və dalğavaridir: kənar hissələr bir qədər yüngülvari yırğalanır, orta hissə isə coşğun enerjilidir Fuqanın üçüncü hissəsindən etibarən mövzu dönmə şəklində təqdim olunur və olduqca ifadəli kontrapunktla qarşılaşdırılır.

Fuqanın səslənmə müddəti 71 xanədir. Mövzu vaxtaşırı təkrarlandığına görə onun quruluşu rondonu xatırladır.

Fuqanın ifası qətiyyətli, enerjili, cürətli, axıcı olmalıdır, amma tələsik olmamalıdır. Bu səbəbdən *Allegro non troppo* daha yaxşıdır. Səslənmə dinamikası *p*–dan daha çox *f*–yə yaxındır.

Musiqi ifaçılarının artikulyasiyaya dair tövsiyələri bir–birindən əhəmiyyətli dərəcədə fərqlənir. Çerni və Mucellini fuqanı *legato* çalmağı təklif edir; d'Alber *non legato* tətbiq edir; Buzoni isə *poco legato* göstərir. Burada ifaçının şəxsi meyllərindən irəli gələn arzu və istək daha məqsədəuyğundur.

Прелюдия и фуга cis–moll

Перед нами одна из самых чудесных и проникновенных ***прелюдий*** «Хорошо темперированного клавира». В сущности, это «непрерывный диалог», разговор, который ведут три голоса, движимые одним и тем же настроением горестной печали.

Поразительная пластичность и контрапунктическая изощренность изложения, сочетаются с глубокой внутренней экспрессией. Многочисленные разнообразные украшения придают мелодической линии особый, волнистый характер. И эта «изогнутость», «извилистость» движения создает неожиданные эффекты, усиливает выразительность.

Исполнение прелюдии требует большой силы выражения, но тонкой, осторожной, в строгих рамках, положенных текстом. Темп плавный, спокойный, ближе всего к *Andantino.* Динамический план основан на умелом сочетании легких контрастов; особенно важно выделять тему в среднем голосе; сопровождение играть повсюду тише. Надо постараться придать большую выразительность непрерывному диалогу между разными голосами. Артикуляция ближе всего к *legato*: в деталях – *molto portato* для аккордовых мотивов, *legato* – для всего остального. Необходимо помнить, что все аподжиатуры (форшлаги) перед четвертью и четвертью с точкой требуют длительности в одну восьмую; аподжиатуры же перед восьмыми (как, например, в т. 8) требуют длительности в одну шестнадцатую.

Фуга (трехголосная), несомненно, резко контрастирует с прелюдией: вместо плавного, мягкого движения прелюдии здесь беспрерывное и энергичное триольное движение шестнадцатыми. Если уж считать ее жигой, то «трагической жигой» при таком подходе к фуге можно найти в ней точки соприкосновения со скорбно–печальным настроением прелюдии. Прелюдия, хотя и представляет собой ариозо, все же написана не без влияния танцевального стиля и отчасти напоминает собой сицилиану. Сопоставление медленного и быстрого танцевального движения, да еще в родственных трехдольных размерах объединяет прелюдию и фугу в единый цикл.

Тема фуги упруга, лаконична, волнообразна – с легким раскачиванием по краям и энергичным взлетом в середине. Со второй трети фуги тема выступает в обращении и сопоставляется с весьма выразительным контрапунктом.

Протяженность фуги – 71 такт. Ее структура, благодаря периодическим повторениям темы напоминает форму рондо.

Исполнение фуги должно быть решительным, энергичным, смелым, текучим, но только не поспешным. Вот почему лучше *Allegro non troppo*. Динамика звучания ближе к *f,* чем к *p.*

Артикуляционные рекомендации музыкантов существенно расходятся. Черни и Муджеллини предлагают играть фугу *legato*; д'Альбер применяет *non legato,* Бузони указывает *poco legato.* Вероятно, здесь возможен известный выбор, сообразно личным склонностям исполнителя.

V Prelüd



a) Bu və buna bənzər digər xanələrin ritmik interpretasiyası üçün I cilddən V fuqanın şərhlərinə baxın.

а) Относительно ритмической интерпретации этого такта и других подобных см. сказанное о 5-й фуге 1-й части.


f
p
mf
cresc.
64
f
p


cresc. a poco a poco
ff
p
cresc.
tr
f
mf
cresc.
f
fp
cresc.
senza rallentare
f

V Fuqa





Эта и другие четыре интермедии фуги в тактах 16, 29. 5 и 42 развивают следующий тематический элемент:

Выделите тему следующим образом:



Начиная с этого места каждое вступление темы следует виде стретто, за исключением тактов 40 и 41.

a) Fuqanın bu və digər dörd intermediyası 16, 29, 35 və 42-ci xanələrdə aşağıdakı tematik elementi inkişaf etdirir:

b) Mövzunu aşağıdakı kimi göstərin:



c) Bu hissədən başlayaraq mövzunun bütün keçidləri (40 – 41-ci xanələr istisna olmaqla) – strettalıdır.


cresc.
dim.
mf
29
mf
p
dim.
35
f
p
cresc.
f
42
f
poco rall.
dim.
p

Prelüd və fuqa D–dur

Prelüd xarakterinə görə parlaq və həyatsevər, aydın və gümrah, təntənəli-şadyana əhval–ruhiyyə ilə zəngindir.

Baxın orkestr əsərlərinə yaxındır. Biz artıq ən başlanğıcda truba fanfaralarını simvolizə edən yuxarı istiqamətli üçsəsli – triol notlarla qarşılaşırıq. Eyni zamanda aşağı istiqamətli ağac nəfəs alətləri (fleyta və qoboy) və ya violin ahəngini xatırladan tersiya və sekstalarla rastlaşırıq.

Prelüdün ritmi – yay kimi elastik və rəqsvaridir (jiqa xarakterindədir). Prelüdün ifası ritmik baxımdan xüsusi qüvvət, hünər, aydınlıq, texniki dəqiqlik, instrumental kolorit tələb edir. Prelüdün hərəkəti kifayət qədər enerjili, çılğın və canlıdır, amma tələsik olmamalıdır. Bu, tam, təmkinli *Allegro*–dur.

İfanın dinamik planı pyesin bir çox hallarda ahəngləşdirilməsi (registrovka) ilə bağlıdır: *f* olsa da, *p* ilə növbələşməlidir.

Prelüdün artikulyasiyası dəqiq və aydın olmalıdır: yüksələn fanfaralar – *non legato* və ya *staccato* ifa olunmalıdır, aşağıya doğru hərəkət edən səkkizlik notlar iki qrupa düzülərək *legato* çalınmalıdır, onaltılıq notlar *quasi leggiero* və ya *legato* ifa edilməlidir. Əgər punktir ritmi triol və sekstollarla eyni vaxtda başlayırsa, bu zaman elə ifa etmək lazımdır ki, sonuncu not triolun axırıncı səkkizlik notu ilə üst–üstə düşsün.

Eyni bir vaxtda həm əzəmətli və ciddi, həm də qüdrətli və qəti olan (amma təmkinli!) dördsəsli ***fuqa*** "prelüdün təzyiqinə qarşı" çox gözəl tab gətirir. Mövzu tonika ilə xanənin zəif təqtisindən başlayır və iki xanəni cəm edir. Əkshərəkət mövzunun materialı əsasında qurulmuşdur.

Göz önümüzdəki nümunə "strettalı" fuqanın klassik örnəyidir. Elə bir xanə yoxdur ki, mövzu ilə, xüsusən də onun ikinci yarısı ilə bu və ya digər şəkildə əlaqədar olmasın. Fuqanı zənginləşdirən strettalar polifonik çətinlik dərəcəsinə görə düzülmüşdür; sonuncu strettada bütün səslər iştirak edir, özü də burada mövzu tam şəkildə keçir.

Bununla bərabər, fuqa məzmununa görə hədsiz mərhəmətlidir. Burada həm əzəmət, həm nəciblik, həm də ehtiras hökm sürür.

Fuqanın ifası təmtəraqlı–gümrah, parlaq, oratoriya xor üslubuna bənzər tərzdə olmalıdır. Templə əlaqədar olaraq musiqi ifaçıları iki tendensiyaya üstünlük verir. Bunlardan birincisi nisbətən təmkinli, sakit *Andante con moto* və *Andante tranquillo* tempidir. İkincisi isə canlı, cəld hərəkətli *Allegro mosso*–dur. Birinci tendensiya daha üstündür.

Fuqanı çox rabitəli və ahəngdar ifa etmək lazımdır. *Tenuto, legato, quasi legato, sempre tenuto, molto pesante* tövsiyə olunur.

Прелюдия и фуга D–dur

Прелюдия по характеру блестяща, жизнерадостна, проникнута ясным, бодрым, ликующе–торжественным настроением.

Близка к оркестровым произведениям Баха. Уже в самом начале ее мы встречаемся с восходящими – по звукам трезвучия – триолями: как, бы символизирующими трубные фанфары, и с ниспадающими терциями и секстами, которые скорее всего напоминают звучность деревянных (флейты и гобоя) или скрипок.

Ритм прелюдии – упругий, пружинистый, танцевальный (в характере жиги). Исполнение прелюдии требует особой упругости ритма, смелости, ясности, отточенности техники, инструментального колорита. Движение прелюдии, достаточно энергичное, пылкое и оживленное, не должно быть поспешным. Это полноценное, сдержанное *Allegro.*

Динамический план исполнения во многом связан с инструментовкой (регистровкой) пьесы: большей частью *f,* но перемежающееся с *p.*

Артикуляция прелюдии должна быть четкой и ясной: восходящие фанфары – *non legato* или *staccato*, ниспадающие группы восьмых – *legato* по две группы, шестнадцатые – *quasi leggiero* или *legato*. Пунктирный ритм, если он выступает одновременно с триолями и секстолями, следует исполнять так, чтобы его заключительная нота совпадала с последней восьмой триоли.

Фуга (четырехголосная) одновременно мощная и строгая, сильная и определенная (но сдержанная!), представляет собой «превосходный противовес натиску прелюдии». Тема ее начинается со слабой доли такта с тоники, охватывает два такта. Противосложение построено на материале темы.

Перед нами классический образец «стреттной» фуги. Нет ни одного такта, который бы, так или иначе, не был связан с темой, особенно с ее второй половиной. Стретты, которыми столь богата фуга, располагаются в порядке нарастания полифонической сложности; в последней стретте участвуют все голоса, причем тема проводится полностью.

Вместе с тем, фуга глубоко человечна по содержанию. В ней есть и величие, и благородство, и страсть.

Исполнение фуги должно быть торжественно–приподнятым, ярким, в стиле ораториального хора. В отношении темпа у музыкантов преобладают две тенденции. Первая ведет к сравнительно сдержанному, спокойному темпу *Andante con moto* и *Andante tranquillo.* Вторая – к оживленному, скорому движению *Allegro mosso*. Первая тенденция представляется предпочтительнее.

Играть фугу нужно очень связно и певуче. *Tenuto, legato, quasi legato, sempre tenuto, molto pesante.*

VI Prelüd


Allegro vivace e brillante (♩= 120)
poco legato, brillantissimo
f
p
dim.
cresc.
f


dim.
p
cresc. a poco a poco
f
dim.
p
Ossia:
cresc.
f
mf
dim.
(sopra)
poco rit.
pp

VI Fuqa





Эта фуга основывается на следующих тематических элементах: начало темы которое повторяется с девятого такта иногда в прямом движении, иногда в обращении. и контрапунктическая фигура, начинающаяся с седьмого такта: (подобная окончанию противосложения ) и повторяющаяся в тактах 12, 13, 21, 22, 23, а также в такте 24, где она слегка изменена.

Bu fuqa aşağıdakı tematik elementlərə əsaslanır: mövzunun başlanğıcı doqquzuncu xanədən etibarən bəzən düz, bəzən isə dönmə şəklində təkrar olunur və yeddinci xanədən başlayan kontrapunktik fiqur (əkshərəkətin sonu kimi –) və 12, 13, 21, 22, 23, eləcə də 24-cü xanələrdə yüngülvari dəyişdirilərək təkrarlanır.

в) В этом связующем такте между вторым и третьим проведением темы имеется в обоих голосах заимствованная из темы фигура шестнадцатых в обращении.

a) Mövzunun ikinci və üçüncü keçidləri arasındakı bu bağlayıcı xanədə mövzudan götürülmüş onaltılıq fiqur hər iki səsdə dönmə şəklindədir.



b) Əkshərəkətin sonu aşağıya doğru hərəkət edən sekvensiyada təkrar olunur.

c) Mövzu dönmə şəklindədir.

b) Конец противосложения повторяется в нисходящей секвенции.
c) Тема в обращении.

**) İ.S.Baxda burada do bekar səsidir, lakin diyez növbəti triolda yaranır.*

**) У И. С. Баха здесь до бекар, а диез перед до появляется лишь в следующей триоли:*

Prelüd və fuqa d–moll

Bu fəal, cəld və qızğın ***prelüd*** demək olar ki, başdan–başa ikisəsli ifadə olunmuşdur. Onun tematik materialı Vivaldinin instrumental üslubunun gənc Baxa şəksiz təsirini sübut edir.

Dəqiq ritm, onaltılıq notlarla aramsız dalğavari hərəkət (bir əlin digərinə hissedilməz keçidi), səkkizlik notlarla qabarıq nəzərə çarpdırılmış akkordlu fiqurasiyalar və nəhayət yüngülvari, xəfif, sanki *pizzicato*–lu müşayiət fonunda zəif titrəmə (x. 18–25) – prelüdün musiqisini rəqsvari xarakterli virtuoz etüdə və yaxud instrumental konsertin finalına bənzədir.

İlk baxışda son dərəcə sadə görünməsinə baxmayaraq, əslində prelüdün ifası müəyyən çətinliklər doğurur. O, dəqiq, iradəli, cəld, nəhayət parlaq olmalıdır. Sürətli, aydın və qətiyyətli temp *Allegro vivace*–yə və ya *Allegro veloce*–yə yaxındır. İfa dinamikasının özünəməxsusluğu ondadır ki, "əsas mövzunu ifa edən səs hər zaman önə çıxır, digər səs isə daha çox kölgədə qalır". Prelüdün əvvəlini əsasən *f,* sonunu isə *p* və *pp* ifa edirlər. Artikulyasiyada onaltılıq notlar üçün *poco legato* və ya *non legato*, səkkizlik notlar üçün *staccato* və ya *non legato* (Mucellini, Kazella, Tauziq, Bodkidə olduğu kimi) və çərək notlar üçün *tenuto*–ya üstünlük verilir.

Üçsəsli ***fuqa*** bizi "romantik" əhval–ruhiyyələr və obrazlar aləminə qərq edir; çox güclü qüssə–kədər anlarında Baxın tətbiq etdiyi aşağı hərəkətli ifadəli xromatika burada bir daha meydana çıxır. Bununla bərabər fuqa prelüdə bilavasitə yaxındır; o bir növ prelüdün dalğavari hərəkətini davam etdirərək, hətta onu gücləndirir.

Şiddətli çırpıntı və çox sürətli qaçış hərəkəti ilə dərin hisslərin özünəməxsus ahəngdarlığı ifanın əsasını təşkil edir. "Girinti–çıxıntı"lı vahid tamın bütün arasıkəsilməz xəttini daxilən hiss etmək lazımdır. Temp yetəri dərəcədə hərəkətli olmalıdır, bununla bərabər həddən artıq sürətli olmamalıdır. Dinamika əsasən *f* və *mf*–dir. Mövzunun artikulyasiyası ifaçılıq təcrübəsində son dərəcə müxtəlifdir: burada həm fasiləsiz *legato,* həm onaltılıq notlar üçün *quasi legato,* həm də aşağı hərəkətli səkkizlik notlar üçün *legato*–ya təsadüf olunur.

Fuqanın ifası zamanı biz bir daha əmin oluruq ki, Baxı düzgün ifa etməklə bərabər, onu həm də ifadəli çalmaq lazımdır.

Прелюдия и фуга d–moll

Эта энергичная и оживленно–возбужденная ***прелюдия*** изложена почти сплошь двухголосно. Ее тематический материал свидетельствует о несомненном влиянии на молодого Баха инструментального стиля Вивальди.

